**UOT 94 (479.24)**

# ORTA ƏSR ƏRƏB-FARS MƏNBƏLƏRİNDƏ AZƏRBAYCAN ƏHALİSİNİN ETNİK MƏNŞƏYİ

**Həsən SƏFƏRİ***

***Açar sözlər:*** *Azərbaycan, Sasani, türk, ərəb, Pəhləvi*

## Giriş

Orta əsr ərəb-fars mənbələrində qədim və erkən orta əsrlərdən bəri Azərbaycanın tarixi və əhalisinin etnik mənşəyi barədə qiymətli məlumatlar əks etdirilmişdir. Həmin dövr (III əsrdən) isə Azərbaycanın əsasən Pəhləvi mənşəli Sasani imperiyası tərəfindən işğal edilməsi ilə eyni dövrə təsadüf edirdi. Türklərlə Sasani şahlarının çox sayda müharibələri də əsasən Azərbaycanda və ətraf ərazilərdə baş verirdi. Türküstanla yanaşı Azərbaycan da türklərin işğalçılarla döyüş meydanına çevrilmişdi. Orta əsr ərəb-fars mənbələrində Azərbaycanı işğal edib və türklərlə müharibə aparan Sasani hakimlərinin, eləcə də Azərbaycana hücum edən ərəblərin müharibələrinin tarixi daha çox Sasani mövqeyindən və birtərəfli yazılsa da, yenə də Azərbaycan əhalisinin etnik mənşəyi baxımından qiymətli məlumatlar hesab edilir.

## 1. Azərbaycanda türklərin yaşaması

Azərbaycan III əsrdən Sasani imperiyası tərəfindən işğal edilsə də, hələ ilkin orta əsrlərdə müəyyən sərhədlərə malik bir ölkə kimi orta əsr ərəb-islam mənbələrində əks olunmuşdur. Azərbaycanın sərhədi və əhalisi barədə orta əsr ərəb-islam mənbələrində qiymətli məlumatlar mövcuddur. Azərbaycanın sərhədini Məhəmməd ibn Məhəmməd Bələmi “Tarixnameyi Təbəri” əsərində belə təsvir etmişdir: “Sərhədin əvvəli Həmədandan başlayır, Əbhər və Zəngandan keçməklə Xəzərlərin Dərbəndinə qədər uzanır. Bu arada hər nə qədər şəhər varsa, hamısı Azərbaycan adlanır”.
(اول حد از همدان گیرند تا به ابهر و زنگان بیرون شوند و آخرش به دربند خزران، و بدین میانه اندر هر چه شهرها است همه را آذربایگان خوانند) (15, s.529).

Göründüyü kimi, hələ min il əvvəldən Azərbaycan vahid şəkildə müəyyən sərhədə malik olmuşdur.

Ərəb mənbələrində Azərbaycan əhalisinin etnik mənşəyi barədə də qiymətli məlumatlar mövcuddur. İlk məlumat islamdan öncə Yəmən padşahlığı Himyərinin (e. ə. 115–b.e. 587) dövrünə aiddir. III əsrdə Raiş adlı Yəmən hökmdarının Azərbaycana hücumu və Azərbaycan türkləri ilə döyüşüb onları məğlub etməsi onlarla ərəb-fars mənbəyindən əks etdirilmişdir. Təbəri Raişin hücumu barədə yazır: “Hişam ibn əl-Kəlbi Raiş haqqında dedi: “Raiş ibn Qeys ibn Seyfi ibn Səba ibn Yəşcəb ibn Yərub ibn Qəhtan Yərub ibn Qəhtan ibn Abir ibn Şalix və qardaşlarından sonrakı Yəmən hökmdarı olmuşdur. Raiş Mənuçöhrün hakimiyyəti dövründə Yəmən hökmdarı olmuşdur və onun adı Haris ibn Əbi Səddəddir. Bir qövmdən əldə etdiyi qənimətləri Yəmənə gətirdiyi üçün ona “Raiş” ləqəbi verilmişdir. Sonra Raiş Hindistana hücum edərək əhalisinin bir hissəsini öldürmüş, qənimət əldə edərək Yəmənə qayıtmışdır. Sonra Ənbar və Mosula doğru hərəkət edərək buraya öz səhabələrindən Şimr ibn əl-Əttaf adlanan şəxsi vali təyin etmiş, daha sonra isə buradan irəliləyərək Azərbaycandakı türklərin üzərinə hücum etmiş və türklərin döyüşçülərini öldürərək uşaqlarını əsir götürmüşdür. Raiş bu hücumlarını yolda iki daş üzərinə yazdırmışdır. Bu iki daş Azərbaycan ölkəsində yerləşir və yerləri məlumdur".
(وقد زعم هشام بن الكلبي، فما حدثت عنه, أن الرائش بن قيس بن صيفي بن سبأ بن يشجب بن يعرب بن قحطان كان من ملوك اليمن بعد يعرب بن قحطان بن عابر بن شالخ وإخوته، وأن الرائش كان ملكه باليمن أيام ملك منوشهر، وأنه إنما سمي الرائش، واسمه الحارث بن أبي سدد، لغنيمة غنمها من قوم غزاهم فأدخلها اليمن، فسمي لذلك الرائش ، وأنه غزا الهند فقتل بها و

* *AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: seferihesen@gmail.com*

سبى و غنم الأموال، و رجع إلى اليمن ثم سار منها، فخرج على جبل طيء ثم على الأنبار، ثم على الموصل، وأنه وجه منها خيله وعليها رجل من أصحابه، يقال له: شمر بن العطاف، فدخل على الترك أرض أذربيجان وهي في أيديهم يومئذ، فقتل المقاتلة وسبى الذرية ، وزبر ما كان من مسيره في حجرين، فهما معروفان ببلاد أذربيجان) (20, s.383).

Azərbaycan əhalisinin türk olması aydınlaşdıran bu hadisə çoxsaylı digər ərəb-fars mənbələrində də əks etdirilib. İbn əl-Əsir “Əl-kamil fit-tarix” (1, s.168), Həmzə İsfahani “Tarix-i sünni mü-luk əl-Ərz vəl-Ənbiya Əleyhim əs-Səlat vəs-Səlam” (18, s.99), Bələmi “Tarixname-yi Təbəri” (13, s.262), naməlum müəllif “Mücməl ət-Tarix vəl-Qisəs” (28, s.120), İbn Miskəveyh “Təcarüb əl-Ümən (10, s.627), İbn Qütəybə “Əl-Məarif” (8, s.627), Vəhb ibn Münəbbih “Ət-Tican fi Müluki Himyər” (30, s.416) və s. ərəb tarixçiləri Raişin Azərbaycan türkləri ilə döyüşü və onlara qalib gəlməsini bir-birindən cüzi fərqlə əks etdiriblər.

Raişin Azərbaycana hücumu və Azərbaycan türkləri ilə döyüşü, eləcə də bu hücumun səbəbləri barədə daha geniş məlumat isə Nəşvan ibn Səid Himyərinin “Müluki Himyər və Əqyal əl-Yəmən...” əsərində öz əksini tapmışdır. Həmin əsərdə Raişin Hindistan səfərindən qayıdandan sonra hakimlərin ona tabe olub vergi ödəməsi, onun isə uzun müddət Yəməndə qalıb yürüşə çıxmaması qeyd edilməklə yanaşı, həmin Yəmən hakimini Azərbaycana hücuma şirnikdirmək məqsədilə Babil padşahı elçilərini Mənuçöhr padşahın (Sasani hökmdarı - H.S.) məktubu, eləcə də əksəri türk ölkəsindən (Azərbaycan nəzərdə tutulur –H.S.) olan cəvahir, qırmızı rəngdə qiymətli əşyalar, Tibet müşkü, ipək, rəngli ipək parça, bəzək əşyaları və qablarla birlikdə Raişə göndərməsi əks etdirilib. Azərbaycandan söhbət edərkən həmin türk yurduna Raişi hücuma həvəsləndirmək məqsədilə göndərilən hədiyyələrin əksərinin silah olduğu qeyd edilir (19, s.65). Göründüyü kimi, islamdan bir neçə yüz il öncə baş verən hadisədən bəhs edilərkən Azərbaycan türk ölkəsi və türk yurdu kimi təqdim edilir. Nəşvan Raişin öz sərkərdəsini Azərbaycan türkləri ilə döyüşə göndərməsini belə qeyd edir: “Şümür Zülcənah əl-Əkbər ibn Əttaf ibn Məntab ibn Əmr ibn Zeyd ibn Əlaq ibn Ömər ibn Zi Əbyəni göndərdi ki, Azərbaycan türkləri ilə qarşılaşsın. Onların arasında müharibə baş verdi. Şümür onların (Azərbaycan türklərinin – H.S.) döyüşçülərini öldürüb, qadın və uşaqları əsir aldı…”.

( ...و بعث شمر ذا الجناح الأكبر بن عطاف بن المنتاب بن عمرو بن زيد بن علاق بن عمر بن ذى أبين، حتى دخل على الترک أذربيجان، فأوقع فيهم وقعة أثرت فيهم، فقتل المقاتلة، وسبى الذرية، و تبع قلهم، حتى أوغل فى بلد الترک...) (19, s.65).

Raişin öz sərkərdəsi vasitəsilə Azərbaycan türkləri üzərində həmin qələbəsi və geri qayıdandan bir müddət sonra Azərbaycan türklərinin xərac verməkdən imtina edib, hətta onların nümayəndələrini öldürdükləri də ərəb mənbələrində əks etdirilib. Vəhb ibn Münəbbih “Ət-Tican fi-Müluki Himyər” əsərində Əməvi xəlifəsi Müaviyənin tarixi bilgilərə malik olan Übeyd ibn Şəriyə ilə qeyd etdiyimiz mövzu barədə danışığını belə təqdim edib: “Böyük Tübbə adlandırılan Tübbə əl-Raid ibn Tübbə əl-Əqrən ibn Şümür Yərəşin hakimiyyətinin iyirminci ilində türklər və Xəzərlər xərac verməkdən imtina edib, Yəmən padşahının elçisini öldürdülər. Bu hadisədən qəzəblənərək Raiş sərkərdəsinin getdiyi yolla hərəkət edərək onların üzərinə hücuma keçib, Tey dağından Ənbara getdi. Onlarla Azərbaycan və Mosul sərhədində qarşılaşdı. Onlara qalib gələrək döyüşçülərini öldürüb, qadın və uşaqları əsir aldı, ölkələrini xarabalığa çevirdi. Onları əzəndən sonra Yəmənə döndü”.

(فمكث تبع الرائد بن تبع الأقرن بن شمر يرعش وهو تبع الأكبر - غزوه - وكان يقال له الرائد ثم أقام عشرين سنة لا يغزو فانقضت عليه الترك والخزر. فلما بلغه ذلك أرسل إليهم فامتنعوا منه وحبسوا الهدايا وقتلوا الرسل. فسار إليهم في الوجه الذي كان الرائش يسلك إليهم فيه على جبل طئ حتى خرج على الأنبار، ثم مضى إليهم قدماً فلقيهم على الحد من أذربيجان والموصل وقد اجتمعوا ونظروا إلى رايته. فاصطفوا للقتال، فاقتتلوا أياماً، ثم إنه هزم الترك فقتل المقاتلة وسبى الذرية، وأقام يخرب بلادهم، ثم رجع إلى بلاده بعد أن وطئهم وأذلهم.) (30, s.449).

Təbəri isə Tübbə əl-Raişin özünün Azərbaycana ikinci yürüşü barədə yazıb: “Tübbədən sonra Bəştasb və Ərdəşir Bəhmən ibn İsfəndiyar ibn Bəştasb dövründə adı Əbu Kərb olan Tübban Əsəd Yəməndən Raişin sərkərdəsinin getdiyi yolla hərəkət edib Tey dağına getdi, oradan isə Ənbara hərəkət etdi. Heyrət adlanan yerə çatdıqda gecə idi, heyrətə gəldi və bura Heyrət adlandı. Ondan sonra yola düşdü, Əzd, Ləxm, Cəzam, Amilə və Qəzaə əhlindən bir qrupunu bina tikmək üçün orada buraxdı. Daha sonra Teyy, Kəlb, Sükun, Belharis ibn Kəəb və Əyaddan bir qrup ona birləşdi. Əbu Kərb Ənbara gedərək, oradan da Mosula və Azərbaycana gedib və türklərlə qarşılaşaraq, onları məğlub etdi. Çoxlu kişiləri öldürüb, qadın və uşaqları əsir alaraq Yəmənə döndü”.

(ثم ملک من بعده تبع، و هو تبان اسعد، و هو ابو کرب بن ملکی کرب تبع زید بن عمرو بن تبع، و هو ذوالاذعار بن ابرهة تبع ذی المنار ابن الرائش بن قیس بن صیفی بن سبا قال: و کان اقال له رائد. قال: فکتن تبع هذا فی ایام بشتاسب و اردشیر بهمن بن بشتاسب، و انه شخص متوجها من الیمن فی طریق الذی سلکه الرائش، حتی خرج علی جبلی طیئ، صم سار یرید الانبار، فلما انتهی الی الحیرة – و ذلک لیلا- تحیر، فاقام مکانه و سمی ذلک الموضع الحیرة، ثم سار و خلف به قوما من الأزد و لخم و جذام و عامله و قضائه، فبنوا و أقامو به، ثم انتقل الیهم بعد ذلک ناس من طیّئ و کلب و السکون و بلحارث بن کعب و ایاد ثم توجه الی الأنبار ثم الی الموصل، ثم الی اذربیجان، فلقی الترک بهزمهم، فقتل المقاتله، و سبی الذریة، ثم انکفاً راجعا الی الیمن) (20, s.566-567).

Həmin hadisə həmçinin İbn Cövzinin “Əl-Müntəzəm fi tarix əl-Üməm vəl-Müluk” (5, s.415), Övtəbi Səhari “Əl-Ənsab” (24, s.216), İbn Miskəviyhin “Təcarüb əl-Üməm” (10, s.59), İbn Qütey-bə “Əl-Məarif” (8, s.630) və s. ərəb tarixçilərinin əsərlərində əks olunub.

Əməvi xəlifəsi Müaviyə tarixə maraq göstərdiyi üçün həmin dövrdə tarix bilicisi olan Übeyd İbn Şəriyyə əl-Cürhümidən Azərbaycan və əhalisi barədə məlumat almışdır. “Müaviyə Übeyddən soruşdu ki, sən Allah, Azərbaycan nə deməkdir. O, cavab verir: Ora türk yurdudur və onlar orada toplanmışlar”.

(قال معاوية: و ما بال آذربيجان لله أنت؟. قال له: انها كانت من أرض الترك و اجتمعوا له) (30, s.416).

“Ət-Tican fi Müluki Himyər” əsərində Tübbənin Azərbaycana hücumundan sonra yenə bir az fərqli formada yenə Azərbaycan və onun əhalisinin etnik mənşəyi barədə Əməvi xəlifəsi Müaviyə-nin Übeyd İbn Şəriyyə əl-Cürhümidən məlumat alması əks olunub. “Müaviyə soruşur: Azərbaycan və türk nə deməkdir? Übeyd deyir: Ora (Azərbaycan-H.S.) onların (türklərin-H.S.) ölkəsidir, ey Əmirəlmöminin”.

(قال معاوية: وما الترك و آذربيجان؟ قال عبيد: هما بلادهم يا أميرالمؤمنين) (30, s.449).

Göründüyü kimi, Əməvi xəlifəsi Müaviyə ilə Übeyd İbn Şəriyyə əl-Cürhümi arasında baş verən bu dialoqda açıq şəkildə Azərbaycanın türklərin ölkəsi olduğu qeyd edilib.

Azərbaycanın qədim şəhərlərindən olan və Azərbaycanın cənub-şərq hissəsini təşkil edən Qəzvin, Qum və Savə şəhərlərinin adının da sırf türklərlə bağlı olduğu tarixi mənbələrdə öz əksini tapıb.

Güney Azərbaycanın cənub-şərq hissəsində qədim Azərbaycan-türk şəhəri Savənin adı Sasani şahları ilə müharibə aparan Ağ Hun şahı Savə şahın (14, s.1011) adı ilə bağlıdır.

Mahmud Kaşğarlı “Divani Lüğati türk” əsərində Qəzvin şəhəri ilə bağlı yazır ki, Qaz Alp Ər-tunqanın (Əfrasiyab) qızının adıdır. O, Qəzvin şəhərinin əsasını qoymuşdur. Bu ad (Qəzvin - H.S.) əslində Qazoyunu, yəni Qazın oyun yeridir. Çünki, o, burada yaşayır və oynayırdı. Bununla əlaqə-dar olaraq, Qəzvini türk yurdları sərhədindən hesab edirlər. Həmçinin Qum şəhəri türkcədir qum-çınqıl mənasındadır. Əfrasiyabın qızı oraya ova gedərdi və ora ova getməyə alışmışdı” (27, s.737).

İbn Hövqəl “Surət əl-Ərz” əsərində Azərbaycanın cənub və cənub-şərq bölgəsinin sərhədində yerləşən İsfahandan söhbət açarkən yazır: “İsfahan məntəqələri qədim zamanlardan Türk və Dey-ləmlə sərhəd idi. Bu ərazini əhatə edən kəndlər ibarətdir: Ləncan, Mehrin, Cənbə, Kərac, Kədər, Kəkavusan, Bərxuar və Bəraan” (6, s.363). Ümumiyyətlə, Azərbaycanın şərqində yerləşən Deylə-min əksər ərəb mənbələrində adı “Türk” (türklərin bölgəsi –H.S.) ilə yanaşı şəklində çəkilir. Bura-dan da aydın olur ki, Deyləmin qoşuluğunda yerləşən Azərbaycan türk yurdu kimi tanınırdı.

Ərəblərin sasanilərə hücumunda Sasani işğalında olan Azərbaycan türkləri də müharibədə iş-tirak edirdilər. Xüsusilə Sasanilərin Mehranilər (4, s.133) adlandırdığı Azərbaycanın yerli hakimləri həmin müharibələrdə Sasani imperiyası tərəfdən döyüşürdülər. Təbəri Həbib ibn Səhbanın dilindən yazır: “Mədainə daxil olduq, güllə səbətləri ilə dolu günbəz şəklində türk evlərini (türk çadırlarını) dağıtdıq. Yeməkdən başqa hər şeyə oxşayırdılar. Qəflətən gördük ki, qablar qızıl və gümüşlə dolu-dur” (21, s.17).

“Azərbaycan türkləri” termininin ərəblərin Azərbaycanı işğal etdiyi illərdə də işləndiyi orta əsr ərəb mənbələrində öz əksini tapıb. İbn əl-Əsir hicri 78-ci (697-ci il) “Əl-kamil fit-Tarix” əsərin-də yazır: “Həmin ildə Məsləmə ibn Əbdülməlik Azərbaycan məntəqəsindən olan türklərlə müharibə etdi, müharibə nəticəsində orada qalaları və şəhərləri fəth etdi”.

(فی هذه السنه غزا مسلمة بن عبد الملك الترك من ناحية آذربيجان ففتح حصونا و مداين هنالك) (2, s.540)

Həmin əsərin digər hissələrində də Məsləmə ibn Əbdülməlikin Azərbaycan məntəqəsindən olan türklərlə döyüşməsi, onlardan çoxlu əsir alması qeyd edilib.

Təbəri isə h. 89-cu il (707-ci vi), eləcə də h. 91-ci (713-cü il) illərin hadisələrindən bəhs edərkən Məsləmə ibn Əbdülməlikin Azərbaycandan olan türklərlə döyüşməsindən bəhs edir (22, s.44 və 454).

"Tarix-i Xəlifə ibn Xəyyat" əsərində isə bu barədə bir az daha ətraflı məlumat verilmişdir: "Həmin ildə (h. 97) Vəlid ibn Əbdülməlik Məhəmməd ibn Mərvanı Cəzirə, Ərməniyə və Azərbaycan valiliyindən kənarlaşdırıb, Məsləmə ibn Əbdülməliki həmin məntəqələrə hakim təyin etdi. Beləliklə Məsləmə ibn Əbdülməlik doxsan yeddinci (719-cu il) ildə türklərə hücum etdi. Azərbaycan istiqamətindən Dərbəndə çatdı. Bir sıra şəhərlər və qalaları fəth edib, ona Dərbənddən o tərəfin vəziyyəti barədə məlumat verdi (25, s.193).

Bələmi "Tarixname-yi Təbəri"də (16, s.828), İbn Kəsir "Əl-Bədayə vəl-Nəhayə" (9, s.77), Əbu Muhəmməd Təyyib ibn Əhməd Baməxrəmə Hicrani "Qəladət əl-Nəhr fi Vəfiyyat Əyan əl-Dəhr" (11, s.521) və s. bir çox ərəb tarixçiləri də Məsləmə ibn Əbdülməlik Azərbaycandan olan türklərlə döyüşməsini qeyd etmişlər.

Xürrəmi hərəkatı dövründə də Babəkin Tarxan adlı böyük sərkərdəsi və onun Marağa bölgəsindəki kəndindən söhbət açılır. "Həmin ildə Babəkin ən böyük komandanlarından olan Tarxan öldürüldü… O, Babəkdən icazə istədi ki, qışı Marağa bölgəsində olan öz kəndində keçirsin. Halbuki, Afşin onu izləyirdi və Tarxanın öz kəndinə getdiyindən xəbər tutduqdan sonra o həmin bölgədə olan Türk Mövla İshaq ibn İbrahimə məktub göndərərək, göstəriş verdi ki, gecə ilə onu (Tarxanın – H.S.) öldürsün və ya əsir tutsun. Türk də həmin işi görüb və gecə vaxtı onu öldürüb, başını Afşinə göndərdi" (3, s.459). Həmin hadisə Təbərinin "Tarix əl-Üməm vəl-Müluk" (23, s.28), İbn Xaldunun "Tarixi ibn Xaldun" (7, s.324) və s. mənbələrdə də öz əksini tapmışdır. Göründüyü kimi, Xürrəmilər dövründə Babəkin türk olan sərkərdəsindən, onun Marağada kəndindən, eləcə də Marağada yaşayan türk olan şəxsdən söhbət gedir.

## 2. Azərbaycana köçürülən qeyri-türk əhali

Azərbaycan III əsrdə əsasən indiki Fars bölgəsindən olan Pəhləvi mənşəli Sasani imperiyası tərəfindən işğal edildikdən sonra, bura ciddi şəkildə Sasani şahlarının fəaliyyət məkanına çevrildi. Sasani şahları Azərbaycanı işğalda saxlaya bilmək üçün Azərbaycanda istehkamlar yaradıb və özlərinə yaxın bildikləri çox sayda xalqları Azərbaycana köçürmüşdülər. Bu da Azərbaycanda demoqrafik dəyişikliyə və Azərbaycanın, xüsusilə Qafqaz bölgəsində çoxetnoslu ölkəyə çevrilməsinə yol açdı.

Xəzər türklərini özlərinə rəqib hesab edən Sasani imperiyası Azərbaycanın şimal bölgəsində Dərbənd qalasını tikdilər. "Sasani şahları Dərbənd sərhədinə xüsusi önəm verirdilər. Çünki, bu hissədən ciddi təhlükə hiss edirdilər. Buraya inandıqları bir qrup mühacirləri köçürdülər. Onlara buranı abadlaşdırıb, məskunlaşmaqda xüsusi muxtariyyət verdilər ki, onlar bu ərazini türklərdən (Xəzər türkləri - H.S.) və kafir düşmənlərdən mühafizə etsinlər" (31, s.387).

Sasani şahları müdafiə məqsədilə Dərbəndlə yanaşı Dərbənddən cənubda Şabran və Məsqət şəhərlərini də tikdilər. Onlar mənbələrə siyasicin kimi daxil olan xalqları həmin dağlıq bölgələrə gətirib məskunlaşdırdılar (12, s.194). Siyasicinlərin tatlar olduğu ehtimal edilir. Lakin həmin dövrün mənbələrində tat və talış adı çəkilmir.

Mənbələrdə Sasani şahları tərəfindən Azərbaycana mühafizə məqsədilə köçürülən xalqlardan Tabarsaran (Tabasaran-H.S.), onlarla qonşuluqda pilan və ləkz (ləzgi-H.S.) adı çəkilir. Ləkzlərin daha çox olduğu, Liran və Şirvanda köçürülən bu xalqların çoxlu piyada və süvaridən ibarət kələntərlik və qarnizonlarının olduğu qeyd edilir (31, s.387).

Həmçinin Sasani şahları müdafiə məqsədilə Azərbaycanın Qafqazda olan hissəsində Soğdbil şəhərini tikib, oraya Soğdianadan silahlı olan əhalini köçürmüşlər (26, s.323).

Qeyd etdiyimiz kimi, xilafət dövrü ərəb-fars mənbələrində Azərbaycanda yaşayan tat və talış adı çəkilmir. İslamdan sonra ərəb işğalları dövründə Gilan, Deyləm və az hallarda isə Muğan ətrafında təyləsan (12, s.314) adı bir sıra tarixçilərin və coğrafiyaçıların, o cümlədən Bəlazurinin əsərində çəkilir. Onların talışan, yəni talışlar olduğu güman edilir. Lakin "talış" şəklində bu söz ərəb-fars

mənbələrində əsasən XIII əsrdən sonra çəkilir. Teymuri dövrü tarixçisi Tətəvi Əhməd ibn Nəsrullah Faruqi "Əlfi" əsərində Xeyrülbəşərin (Həzrət Məhəmməd - H.S.) vəfatının 664-cü ilinin hadisələri başlığında yazılıb: "Həmin ilin əvvəlində Abaqa xan Arranda qışlaq edib, bir gün ova çıxdı. Şahruddan 5 fərsəng (ölçü vahidi - hər fərsəng 6.24 km-dir) keçdikdən sonra meşəyə çatdı və ovla məşğul oldu. Talış əhalisindən olan bir qrup, yırtıcı kimi qılınc və nizə ilə Abaqanın adamlarına hücum etdi. Monqol süvarilər də onlara hücum etdi və döyüş baş verdi. Sonda talışlar tab gətirməyib qaçdılar. Abaqa xan göstəriş verdi ki, döyüşçülər onları tutub gətirsinlər. Döyüşçülər meşəni mühasirəyə aldılar. Həmin qrupun başçısı qılınc və kəfənini boynundan asıb təslim oldu. O cəhangir padişah da onları əfv etdi" (17, s.670).

Talışlar Şimali Azərbaycanla yanaşı Cənubi Azərbaycanda da Astaradan Cənubda Gilan vilayətinin bir hissəsində yaşayırlar. Cənubi Azərbaycanda Seyid Əhməd Kəsrəvi Qaradağ və Mərənd bölgəsinin Hərzənd (Daş Hərzənd və Çay Hərzənd), Gəlinqaya və ətraf ərazilərində bir neçə kəndin talış bölgəsindən son yüzilliklərdə bu bölgəyə köçmüş əhalisinin dilini qədim azərbaycanlıların dili kimi qələmə verərək "azəri dili" nəzəriyyəsini uydurmuşdur. Lakin S.Ə.Kəsrəvinin həmin bir neçə kəndin qeyri-türk dilində danışması əsasında uydurduğu "azəri dili" nəzəriyyəsini isə elə həmin kəndlərin əhalisinin öz soy-kökünə dair dedikləri rədd edilir. S.Ə.Kəsrəvi iddia edirdi ki, həmin bölgədə minlərlə türk kəndinin içərisində beş-altı kəndin əhalisi türk deyilsə, deməli Azərbaycanın qədim və əsil əhalisi onlar olub və türklər son yüz illiklərdə Azərbaycana köçüblər. Lakin indi də gedib Kəsrəvinin istinad edib uydurma "azəri dili" nəzəriyyəsini formalaşdırdığı həmin kəndlərin əhalisindən soy-kökləri barədə soruşanda deyirlər ki, biz nə azəriyik, nə də tat. Biz talışıq və əcdadımız təxminən 200-300 il öncə Talış bölgəsindən buraya köçüblər. "Hərzənd əhalisi ata-babalarının dedikləri əsasında bildirirlər ki, təxminən 200-300 il öncə Talış bölgəsindən bu bölgəyə köçüb və Köhnə Hərzənd (Daş Hərzənd-H.S.) kəndində məskunlaşıblar. Sonra isə Gəlinqaya və Baberəyə dağılışıblar" (29, s.21).

Sözsüz ki, Azərbaycana müxtəlif dövrlərdə köçlər və köçürmələr olub. Sasanilərin öz köçləri və köçürmələrindən sonra ərəb işğalları və ondan sora ərəb köçləri də olub. Lakin bunların əksəri yerli əhaliyə nisbətən az olduğu üçün əriyib gedib.

**Nəticə**

Orta əsr ərəb-fars mənbələri türk izini Azərbaycandan silmək üçün çox sayda qeyri-türk əhalini Soğdiana və digər ərazilərdən Azərbaycana köçürən Sasanilərin təsiri altında qələmə alınsa da, həmin mənbələrdə Azərbaycanın ilkin əhalisi kimi türklərin adı çəkilir. Hətta bir sıra ərəb işğalları dövrü mənbələrində "Azərbaycan türkləri" termininə rast gəlinir. Eyni zamanda Azərbaycanı işğal etmiş Sasani imperiyası bir tərəfdən Ağ Hun (Eftalit) türk imperatorluğu ilə davamlı müharibədə olsa da, Şimali Qafqazdan Xəzər türklərinin qarşısını ala bilmək üçün yerli türk əhalidən deyil, sırf öz xalqı olan pəhləvilər və onlara tabe olmuş digər qeyri-türk xalqlarını Soğdiana və digər bölgələrdən Azərbaycana, xüsusilə Cənubi Qafqaza köçürüb, Dərbənd, Şabran, Soğdabil və s. bölgələrdə şəhərlər salıb, möhkəm istehkamlar yaratmışdı. Sasani şahlarının Azərbaycana köçürdüyü etnoslardan siyasicin, tabarsaran, ləkz və s. adları ərəb-fars mənbələrinə öz əksini tapıb.

## ƏDƏBİYYAT


1. ابن اثیر، علی بن محمد. الکامل فی التاریخ، جلد 1، دار صادر، بیروت، 1385
2. ابن اثیر، علی بن محمد. الکامل فی التاریخ، جلد 4، دار صادر، بیروت، 1385
3. ابن اثیر، علی بن محمد. الکامل فی التاریخ، جلد 6، دار صادر، بیروت، 1385
4. ابن اعثم کوفی، محمد بن علی. الفتوح، دار الاضواء، جلد 1، بیروت 1411
5. ابن جوزی عبدالرحمن بن علی. المنتظم فی تاریخ الامم و الملوک، جلد 1، دارالکتب العلمیه، بیروت
6. ابن حوقل، محمد بن حوقل. صورة الأرض، جلد 2، دار صادر، بیروت 1938
7. ابن خلدون، عبدالرحمان بن محمد. تاریخ ابن خلدون، جلد 3، دارالفکر، بیروت 1408

8. ابن قتيبه، عبدالله بن مسلم. المعارف (ابن قتيبه). الهئه المصريه العامه للكتاب، قاهره 1992
9. ابن كثير، اسماعيل بن عمر. البداية و النهاية، جلد 9، دارالفكر، بيروت، 1398
10. ابن مسكويه، احمد بن محمد. تجارب الأمم، جلد 1، 591 ص.
11. ابو مخرمه، عبدالله طيب بن عبدالله. قلادة النحر فى وفيات أعيان الدهر، جلد 1، دارالمنهاج، بيروت، 558 ص.
12. بلاذرى، احمد بن يحيى. فتوح البلدان، دار و مكتبه الهلال، بيروت 1988
13. بلعمى، محمد بن محمد. تاريخنامه طبرى. جلد 1، سروش، تهران 1378
14. بلعمى، محمد بن محمد. تاريخنامه طبرى. جلد 2، سروش، تهران 1378
15. بلعمى، محمد بن محمد، تاريخنامه طبرى، جلد 3، انتشارات البرز، تهران، 1373
16. بلعمى، محمد بن محمد، تاريخنامه طبرى، جلد 4، انتشارات البرز، تهران ، 1373
17. تتوى، احمد بن نصرالله، تاريخ الفى، ناشر بى نام، تهران 1382
18. حمزه اصفهانى، حمزه بن حسن. تاريخ سنى ملوك الأرض و الأنبياء عليهم الصلاة والسلام، دار مكتبه حياه، بيروت، 183 ص.
19. حميرى، نشوان بن سعيد. ملوک حمير و اقيال اليمن و شرحها المسمى خلاصة السيرة الجامعة لعجائب اخبار الملوک التبابعة، دارالعودة، بيروت 1978
20. طبرى محمد بن جرير. تاريخ الطبرى- تاريخ الامم و الملوک، جلد 1، بيروت، 637 ص.
21. طبرى محمد بن جرير. تاريخ الطبرى- تاريخ الامم و الملوک، جلد 4، بيروت، 584 ص.
22. طبرى محمد بن جرير. تاريخ الطبرى- تاريخ الامم و الملوک، جلد 6، بيروت، 635 ص.
23. طبرى محمد بن جرير. تاريخ طبرى- تاريخ الامم و الملوک، جلد 9، بيروت، 686 ص.
24. عوتبى صحارى، سلمه بن مسلم. الأنساب، جلد 1، سلطنة عمان، وزارة التراث القومى الثقافة، مسقط 1427
25. فواز حكمت، تاريخ خليفة بن خياط، دارالكتب العلمية، منشورات محمد على بيضون، بيروت، لبنان، 1415
26. كاتب بغدادى، قدامه بن جعفر. الخراج و صناعة الكتابة، دار الرشيد للنشر، بغداد 1981
27. كاشغرى، محمود بن حسين بن محمد. ديوان لغات الترک- نامها، صفتها، ضميرها و صفتها، تهران 1375
28. مؤلف ناشناخته (قرن 6 ق.). مجمل التواريخ و القصص. آلمان، 1378
29. نيما آصفى. خواستگاه زبانى مهاجران هرزن (واكاوى نظريه هنينگ)، پژوهشهاى ايرانشناسى، سال 9، شماره 2، پاييز و زمستان 1398
30. وهب بن منبه. التيجان فى ملوک حمير. مركز الدراسات و الأبحاث اليمنية، صنعا، 506 ص.
31. ياقوت حموى، ياقوت بن عبدالله. معجم البلدان، جلد 1، سازمان ميراث فرهنگى كشور (پژوهشكده)، تهران 1380


## *РЕЗЮМЕ*

***Гасан Сафари***

### *Этническое происхождение азербайджанского населения в средневековых арабско-персидских источниках*

***Ключевые слова:*** *Азербайджан, Сасанидский, Турецкий, Арабский, Пехлеви*

В статье этническое происхождение азербайджанского населения исследуется на основе средневековых арабско-персидских источников. В них, говоря об Азербайджане раннего средневековья, отмечается, что эта территория, оккупированная Сасанидами, была тюркской землей и тюркской страной. Особо отмечается, что Йеменский правитель Раиш, который два раза нападал на эти земли, воевал с азербайджанскими турками. Также сообщается, что во время вторжения арабского халифата, Муслим бин Абдул Малик воевал с азербайджанскими турками. Хотя их имена редко упоминаются в арабских источниках, отражено, что небольшое количество нетюркских народов также было переселено сюда. В источниках говорится, что когда сасанидские правители основали Дербент и ряд других городов, в целях своей безопасности переселяли в эти города покорных себе народы не турецкого происхождения.

***SUMMARY***

***Hasan Safary***

***Ethnic origin of the Azerbaijani population in the medieval Arabic-Persian sources***

***Keywords:*** *Azerbaijan, Sassanid, Turk, Arab, Pahlavi*


The article explores the ethnic origin of the Azerbaijani population on the basis of medieval Arabic-Persian sources. In these sources, speaking about Azerbaijan in the early Middle Ages, it is noted that this territory, occupied by the Sassanids, was a Turkish land and a Turkish country. It is especially noted that the Yemeni ruler Raish, who twice attacked these lands, fought with the Azerbaijani Turks. It is also reported that during the invasion of the Arab Caliphate, Muslim bin Abdul Malik fought with the Azerbaijani Turks. Although their names are rarely mentioned in Arabic sources, it is reflected that a small number of non-Turkic peoples were also resettled here. Sources say that when the Sassanian rulers founded Derbent and a number of other cities, for the sake of their safety, they resettled submissive peoples of non-Turkish origin to these cities.